# AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN
## *Hərbi Tibb Fakültəsinə Hərbi feldşer işi ixtisası üzrə 2025/2026-cı tədris ili üçün sənəd qəbulu*

**Ümumi məlumat:**

**Tədris dili: Azərbaycan dili** | **Təhsil forması: əyani** | **Təhsil müddəti: 3 il**

Cari ildə ümumitəhsil pilləsinin tam orta təhsil səviyyəsini bitirmiş, 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının kişi cinsli mülki vətəndaşları, habelə 18 yaşından 23 yaşınadək kişi cinsli, zabit rütbəsi olmayan hərbi qulluqçular (zabit və gizir (miçman) hərbi rütbəsi olanlar istisna olmaqla) və hərbi vəzifəlilər qəbul edilirlər.

**SƏNƏDLƏRİN QƏBULU:**

Hərbi feldşer işi ixtisası üzrə Hərbi Tibb Fakültəsinə qəbul olmaq istəyən namizədlər 3 fevral 2025-ci il tarixindən 31 may 2025-ci il tarixinədək ərizə ilə müraciət etməlidirlər. Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:

1. **Abituriyentin təsdiq olunmuş elektron ərizəsindən çıxarış**
2. **Anket forması**
3. **Tam orta təhsil haqqında sənədin surəti (cari ilin məzunları üçün arayış)**
4. **Doğum haqqında şəhadətnamənin surəti**
5. **Şəxsiyyət vəsiqəsinin surəti və ya yeni nəsil şəxsiyyət vəsiqəsindən çıxarış**
6. **Nikah və uşaqların doğum haqqında şəhadətnamənin surəti (evli olduqda)**
7. **Ailə tərkibi və yaşayış yeri haqqında arayış**
8. **Rəngli fotoşəkil (baş geyimsiz, anfas) 6 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4.5x6 sm**
9. **18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya qəyyumlarının razılıq ərizələri**
10. **Psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar**

***Qeyd: Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd və tam orta təhsil haqqında sənədin əsli namizəd tərəfindən sənədlərin qəbul mərkəzində fəaliyyət göstərən komissiyaya şəxsən təqdim edilir.***

***HƏRBİ FELDŞER İŞİ İXTİSASI ÜZRƏ HƏRBİ TİBB FAKÜLTƏSİNƏ QƏBUL AŞAĞIDAKI QAYDADA HƏYATA KEÇİRİLİR***

1.Götürülməmiş intizam cəzası olan (yalnız hərbi qulluqçular), məhkumluğu ödənilməmiş və ya üzərindən götürülməmiş, həmçinin ağır və ya xüsusilə ağır, habelə hərbi xidmət əleyhinə cinayət törətmiş, hərbi təhsil müəssisələrindən xaric edilən, hərbi həkim komissiyası tərəfindən fakültədə təhsil almağa yararsız hesab olunan və öyrənilmə tədbirləri keçirilən zaman Hərbi tibb fakültəsinə qəbula mane olan digər hallar müəyyən edilən şəxslər Hərbi Tibb Fakültəsində təhsil almaq üçün namizədlər siyahısına ***daxil edilmirlər.***

2.Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı müsabiqədə iştirak etmələri üçün **Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinə** göndərilir.

3.Namizədlərin Hərbi Tibb Fakültəsinə qəbulu müvafiq tədris ilində tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı verən abituriyentlərin buraxılış imtahanında, digər abituriyentlərin isə müvafiq tədris ilində keçirilən qəbul imtahanında əldə etdikləri nəticələrə əsasən **Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi** tərəfindən həyata keçirilir.

***4.Qəbul imtahanının tarixi Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən elan olunur.***

***Namizədlər hərbi həkim komissiyasında müayinədən keçməlidirlər. Hərbi həkim komissiyasından keçmək üçün tarix və ünvan namizədlərə əlavə olaraq bildiriləcək.***